

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (23.565)

12 sentyabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şahmat müəllimlərinə sertifikatlar təqdim olunub




*Sentyabrın 11-də Naxçıvan Şahmat Mərkəzində sertifikasiya imtahanlarında uğurlu nəticə əldə edən müəllimlərə sertifikatların təqdimatı olmuşdur.*

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, şahmatın inkişafı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən daim diqqətdə saxlanılır. Məhz bunun nəticəsidir ki, şəhər və rayonlarda şahmat məktəbləri tikilib istifadəyə verilmişdir. Son illər Şahmat Federasiyasının Təhsil Nazirliyi ilə birgə fəaliyyəti nəticəsində orta məktəblərdə şahmatın yüksək səviyyədə tədris olunmasına, yeni istedadlı gənc şahmatçıların üzə çıxarılmasına nail olunmuşdur. Pandemiya dövründə federasiya nazirliklə birlikdə davamlı olaraq onlayn dərslər keçmiş, şahmatçıların bilik və bacarıqları artırılmışdır. Həmçinin elektron şəkildə keçilən dərslər federasiyanın "Youtube" kanalına yüklənmiş, CD formasında şahmatçılara və müəllimlərə verilmişdir.

Seymur Talıbov diqqətə çatdırmışdır ki, il ərzində Şahmat Federasiyası Təhsil Nazirliyi ilə birgə orta məktəblərdə şahmatın yüksək səviyyədə tədris olunması üçün sertifikasiya imtahanları keçirmişdir. Ali Məclis Sədrinin tapşırığına əsasən müəllimlərin imtahanı ödənişsiz aparılmışdır. Bu da muxtar respublika rəhbərinin şahmatın inkişafına böyük önəm verdiyinin bariz nümunəsidir. Ötən il 400-dən çox müəllimin ümumtəhsil məktəblərində şahmat fənnini tədris etməsi üçün sertifikat verilmişdir. Bu gün isə daha 18 müəllimə belə sertifikatlar təqdim olunur. Yeni sertifikat alan müəllimlər orta məktəblərdə uşaqlara şahmatın sirlərini daha dərindən öyrətməyə, yeni istedadlı uşaqların üzə çıxarılmasına çalışmalı, maarifləndirmə işləri aparmalı və idmanın bu növünü təbliğ etməlidirlər.

Federasiya sədri bu yolda şahmat müəllimlərinə uğurlar arzulamışdır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov qeyd etmişdir ki, göstərilən qayğı sayəsində şahmat məktəblərinin maddi-tədris bazası möhkəmləndirilmişdir. Muxtar respublikada şahmat mərkəzi və məktəbləri 67 ən yeni, müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunmuşdur. Eyni zamanda aparılan təhsil quruculuğu prosesi zamanı ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün siniflər ayrılmış, məktəblər şahmat dəstləri ilə təmin edilmişdir. Rəhman Məmmədov təhsilin və şahmatın inkişafına göstərdiyi diqqət və qayğıya görə təhsil işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Nuray Abbasova şahmatın inkişafına göstərilən qayğıya görə müəllim və şagird kollektivi adından minnətdarlıq edərək demişdir ki, bundan sonra da şahmat dərslərinin tədrisinə diqqət artırılacaq, dərəcəli şahmatçıların hazırlanmasına ciddi səy göstəriləcəkdir.

Sonra sertifikasiya imtahanlarında yüksək bal toplayan müəllimlərə sertifikatlar təqdim olunmuş, xatirə şəkli çəkdirilmişdir.

**"Şərq qapısı"**

## Muxtar respublikada təhsil sahəsində quruculuq işləri uğurla davam edir

***Muxtar respublikamızda təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Təhsilin səviyyəsinin yüksəldilməsi məqsədilə ötən dövr ərzində muxtar respublikamızda 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Muxtar respublikada təkcə 2018-2020-ci illərdə, ümumilikdə, 16 yeni məktəb binası yenidən bərpa olunmuş, təhsil müəssisələri lazımi avadanlıqlarla təchiz edilmiş, məktəblərdə şagirdlərə təhsil almaq üçün əlverişli şərait yaradılmışdır.***



Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də təmir-tikinti işlərinin önündə təhsil quruculuğu dayanır. Təkcə 2020-ci ilin birinci yarımili ərzində 656 şagird yerlik 2 ümumtəhsil məktəbi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bu dövr ərzində aparılan kompleks quruculuq və abadlıq işləri sırasında Vənənd kənd tam orta məktəbi də yer alıb. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli Qərarı ilə Dizə kənd tam orta məktəbi Vənənd kənd tam orta məktəbinə birləşərək müasir tədris şəraiti ilə təmin olunub, 2020-ci il yanvarın 13-də müəllim və şagirdlərin istifadəsinə verilib.

Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanlar açan müasirtipli, 432 şagird yerlik məktəbdə 3-ü elektron lövhəli olmaqla, 27 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat, kompüter sinifləri, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları fəaliyyət göstərir.

Bərpa edilərək müasir maddi-texniki təchizatla, avadanlıqla 18 may 2020-ci ildə pedaqoji kollektivin və şagird kontingentinin ixtiyarına verilən Şərur rayon Muğancıq-Mehrab kənd tam orta məktəbində də şagirdlərin rahat təhsil almaları üçün geniş imkanlar yaradılıb. Ötən tədris ilində 224 şagird yerlik müasirtipli yeni məktəb binasında 83 şagird təhsil alıb. Məktəbdə 3-ü elektron lövhəli olmaqla, 16 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat, kompüter sinifləri, müəllimlər və psixoloq otaqları, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları fəaliyyət göstərir.

İstifadəyə verilən Vənənd və Muğancıq-Mehrab kənd tam orta məktəblərində yaradılan müasir tədris şəraiti həmin məktəblərdə tədrisin səviyyəsinin artmasına, daha yüksək nəticələrin əldə olunmasına, bilikli və vətənpərvər gənclərin yetişdirilməsinə geniş imkanlar açır.

Hazırda uğurlu quruculuq işlərinin davamı olaraq Şərur rayon Qaraburc kənd ümumi orta, Şəhriyar, Babək rayon Nəcəfəlidizə, Ordubad şəhər 1 nömrəli, rayonun Nüsnüs, Culfa rayon Camaldın kənd tam orta məktəbləri, həmçinin Culfa Rayon Təhsil Şöbəsi və məktəbdənkənar təhsil müəssisələri üçün inzibati binada da əsaslı təmir-bərpa işləri aparılır.

Yenidən bərpa olunaraq müasir təhsil ocaqları sırasına qoşulmağa hazırlaşan Məhəmməd Tağı Sidqi adına Ordubad şəhər 1 nömrəli tam orta məktəb də yeni imkanlarla şagirdlərin ixtiyarına veriləcəkdir. 558 şagird yerlik, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq yeni məktəb binasında sinif, müəllimlər və direktor otaqları, kitabxana və yardımçı otaqlar, laboratoriya, kompüter, şahmat və elektron lövhəli otaqlar, idman zalı və hərbi kabinə yenilənəcək.



Ordubad şəhər 1 nömrəli tam orta məktəb



Culfa rayon Camaldın kənd tam orta məktəbi də yenidən bərpa olunur. Artıq məktəbdə tikinti işləri yekunlaşmaq üzrədir. 252 şagird yerlik yeni bina 2 mərtəbəli olacaq. Məktəb müasir tədris texnologiyaları və avadanlıqları, dərslik və dərs vəsaitləri, bədii ədəbiyyatla təmin ediləcək.

Yeni tikilən təhsil ocaqlarından biri də 2 mərtəbə və 3 korpusdan ibarət olacaq Culfa Rayon Təhsil Şöbəsinin yeni binasıdır. Binanın birinci mərtəbəsində rayon Təhsil Şöbəsinin tabeliyində fəaliyyət göstərəcək 13 otaqdan ibarət 3 məktəbdənkənar təhsil müəssisəsi – Gənc Turist və Diyarşünaslıq, Texniki Yaradıcılıq və Uşaq- Gənclər Yaradıcılıq mərkəzləri fəaliyyət göstərəcək. Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəqs, memarlıq, rəsm, qum sənəti, xalçaçılıq, Texniki Yaradıcılıq Mərkəzində xidməti otaq, robotexnika, bujiteriya, ağac üzərində oyma, ağac üzərində yandırma, mental aritmetik, Gənc Turist və Diyarşünaslıq Mərkəzində isə toxuma, bədii tikmə, heykəltəraşlıq və dulusçuluq dərnəkləri yaradılacaqdır.

Binanın ikinci mərtəbəsində isə Culfa Rayon Təhsil Şöbəsi üçün 12 iş otağı və akt zalı yerləşəcəkdir.

Hazırda binada son tamamlama işləri görülür, həyətyanı sahədə abadlıq işləri aparılır. Bundan əlavə, binanın arxa hissəsinin zirzəmisində elektrik otağı və qazanxana yerləşir. Həmçinin burada işıqlandırma sistemi, yaşıllıq zolağı və gülkarlıq da yaradılacaqdır.

Ordubad rayon Nüsnüs kənd tam orta məktəbi də yenilənən məktəblər sırasındadır. İki mərtəbə və zirzəmidən ibarət köhnə məktəb binasında mart ayından başlayaraq əsaslı təmir işləri aparılır. 414 şagirdin təhsil alması üçün nəzərdə tutulan yeni məktəb binasında da müasir tədris şəraiti yaradılacaq.

Əsaslı şəkildə yenidən qurulacaq Şərur rayon Qaraburc kənd ümumi orta məktəbində də tikinti işləri sürətləndirilib. Müəllim və şagirdlərin istifadəsinə veriləcək 3 mərtəbədən ibarət 120 şagird yerlik müasirtipli məktəb tədrisin keyfiyyətinin yüksəldilməsi üçün ən müasir avadanlıqlarla təchiz ediləcək.

Geniş imkanların yaradılacağı 2 mərtəbədən ibarət Şəhriyar kənd tam orta məktəbi 226 şagird yerlik olacaq. Müasir görkəmi ilə göz oxşayacaq təhsil ocağında internetə çıxışı olan kompüter və elektron lövhə quraşdırılacaq, kitabxana fondu da zənginləşdiriləcək. Binanın həyətində abadlıq işləri aparılacaq, müasir işıqlandırma sistemləri quraşdırılacaq.

2001-ci ildə istifadəyə verilmiş Babək rayon Nəcəfəlidizə kənd tam orta məktəbində cari ilin mart ayından başlayaraq geniş quruculuq işləri aparılır. Cəmi 7 otaqdan ibarət 50 şagird yerlik köhnə tikili müasir tələblərə cavab verən 3 mərtəbədən ibarət 78 şagird yerlik 13 sinif otaqlı bina ilə əvəz ediləcəkdir.

Yeni təhsil ocaqlarında keçilən dərslərin keyfiyyətini artırmaq məqsədilə şahmat sinfi, kitabxana, elektron lövhəli sinif, hərbi kabinə, laboratoriya otaqları və idman zalı, qazanxana və bufet olacaq.

Bütün bunlar muxtar respublika rəhbəri tərəfindən təhsilin inkişafına böyük töhfədir. Onu da qeyd etmək yerinə düşər ki, muxtar respublikada təhsillə bağlı həyata keçirilən tədbirlərin real nəticələridir ki, yeni məktəblər təhsil göstəricilərinin yüksək olması ilə fərqlənir. Müasir şəraitə malik bu təhsil ocaqlarında şagirdlər də yaxşı oxumalı, gələcəkdə cəmiyyətdə layiqli yer tutmaq üçün bilikli, savadlı olmalıdırlar.

Ali Məclis Sədrinin müntəzəm dəstəyi və qayğısı sayəsində muxtar respublikada yeni məktəblər inşa edilir, ucqar yaşayış məntəqələrindəki kiçik kontingentli məktəblər müasirtipli binalarla əvəz edilir. Ümumtəhsil məktəblərinin əsaslı təmiri və maddi tədris bazasının möhkəmləndirilməsi, infrastrukturunun yenidən qurulması sahəsində aparılan işlərin ardıcıl davam etdirilməsi, bütövlükdə, ümumi təhsilin keyfiyyətinin yaxşılaşmasına, təlim-tərbiyə şəraitinin, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə müstəsna dərəcədə əhəmiyyətli təsir göstərmişdir.

Dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının yaradılması, eləcə də fənlərin məzmununun təkmilləşdirilməsi şagirdlərin yaradıcılıq qabiliyyətinin, idrak fəallığı və dünyagörüşünün genişləndirilməsində böyük rol oynamışdır. Bununla yanaşı, muxtar respublikanın təhsil müəssisələrində şagirdlərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində bir sıra pilot layihə və müsabiqələr təşkil edilmiş, məktəb və valideyn əlaqələrinin möhkəmləndirilməsi, yerli təhsil orqanları ilə ümumi təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi sahəsində məqsədyönlü işlər aparılmışdır. Muxtar respublika məktəbliləri arasında fənn olimpiadalarının təşkili şagirdlərimizin respublika fənn olimpiadalarında və digər beynəlxalq bilik yarışlarında ildən-ilə daha da çox uğur qazanmaları ilə nəticələnir. Təhsilin keyfiyyətinin müasir çağırışlara uyğunlaşdırıldığı, xüsusilə də inteqrasiya meyillərinin getdikcə gücləndiyi bir dövrdə gənc nəslin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə edilməsi bu sahədə qarşıda duran əsas vəzifələrdən biridir.

*Ümumiyyətlə, bu gün muxtar respublikada yeni məktəblərin tikintisi, digərlərində aparılan əsaslı təmir işləri, əlavə korpusların inşası böyük vüsət alıb. Təhsil sahəsində həyata keçirilən bu məqsədyönlü tədbirlər gələcəyimiz olan şagirdlərin inkişafına xidmət edir.*

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

Müasirləşən bölgələrimiz

# Hər qarışında inkişaf, tərəqqi olan qədim yurd yerimiz

# CULFA





***Məğrur duruşu ilə dostuna fəxarət yaşadan, düşməninə meydan oxuyan əzəmətlik rəmzi Əlincəqalanın, zirvəsinə buludların sığal çəkdiyi Nuh yadigarı Haçadağın hər daşında, kərpicində tarixin izləri sezilən möhtəşəm Gülüstan türbəsinin ucaldığı, Nəiminin haqq səsinin cövlan etdiyi, Teymurləngin xülyasının sulara qərq olduğu qədim yurd yerimiz Culfa... Xanəgah Abidə Kompleksi, Darıdağ Arsenli Su Müalicəxanası, Karbon Qazı Zavodu ilə də şöhrət tapan bu bölgəmizə üz tutan qonaqların ilk olaraq son illər hüsnü quruculuq ərməğanları ilə bəzənən Culfa şəhəri diqqətini çəkir. Rayon mərkəzindən ucqar dağ kəndlərinədək hər qarışda inkişaf, tərəqqi naminə atılan addımların sədası duyulur. Simasına yaraşıq gətirən, həyatində həmişəyaşıl ağacların boy göstərdiyi təhsil, səhiyyə və mədəniyyət ocaqlarının bir-birindən gözoxşayan binaları rayonun müstəqillik illərində çəkilən quruculuq xəritəsinin kiçik çalarlarıdır...***

Yaxın keçmişə nəzər salanda görürük ki, son 25 ildə Culfada həyata keçirilən layihələr, görülən məqsədyönlü tədbirlər nəticəsində bütün sahələrin dinamik inkişafı təmin edilib, aparılan kompleks tikinti-quraşdırma, abadlıq və yenidənqurma işləri bölgənin simasını daha baxımlı, gözoxşayan formaya salmaqla bərabər, həm də insanların yaşayış səviyyəsini də xeyli yüksəldib. İndi rayonun istənilən yaşayış məntəqəsinə üz tutsan, həm yolboyu, həm də yetişəcəyin ünvanda bir-birindən fərqli dizayna malik müstəqillik bəhrələri ilə qarşılaşarsan. Bir vaxtlar susuzluqdan sapsarı saralan, kimsəsiz quru səhranı xatırladan çöllərdə son illər ərzində iməciliklər vasitəsilə şux, təravətli yaşıllıqlar salınıb, cadar-cadar olan əkin-biçin ərazilərinə yeni nəfəs gəlib, tikan basmış sahələrdə artıq dizdən yuxarı yamyaşıl zəmilər, lalələr, süsənlər boy göstərib. Ötən illər ərzində rayonun yaşayış məntəqələri muxtar respublikanın abad kəndləri sırasına qoşulub, məktəblər, uşaq bağçaları, idman obyektləri, səhiyyə və mədəniyyət ocaqları üçün ən yeni avadanlıqlarla təchiz olunmuş müasir binalar istifadəyə verilib. Sosial sahədə aparılan uğurlu siyasət nəticəsində insanların torpağa bağlılığı, yaşayıb-yaratmaq əzmi artıb. İlbəil daha böyük inkişaf mərhələsinə qədəm qoyan, 1 şəhər və 22 kənddən ibarət, 47 mindən artıq əhalisi olan Culfa rayonu 2020-ci ildə də uğurları ilə bölgə sakinlərinin yaddaşında xoş əhval-ruhiyyə dolu dərin təəssüratlar buraxmaqda davam edir.

### *Bölgənin siması yeni naxışlarla bəzənir*

Müstəqillik illərində muxtar respublikanın bütün bölgələri kimi, Culfa rayonu da aparılan genişmiqyaslı quruculuq tədbirlərindən lazımınca bəhrələnib. Rayonun sovet dönəmindən qalma köhnə, yararsız tikililərinin yerində müasir görünüşlü, hərtərəfli şəraitə malik yeni binalar ucaldılıb, rayon mərkəzi və kəndlərin yol infrastrukturu tamamilə yenilənib, əvvəllər su sarıdan əziyyət çəkən insanların arzuları, diləkləri aydınlığa çıxıb. İldən-ilə həcmi genişlənən tikinti-quruculuq tədbirləri 2020-ci ildə də uğurla davam etdirilir. Cari ilin ilk 7 ayının statistik nəticələri də inşaat işlərinin həcminin genişliyindən, görülən tədbirlərin səmərəliliyindən xəbər verir. Belə ki, bu ilin yanvar-iyul aylarında tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 0,8 faiz artaraq 17 milyon 971,5 min manat təşkil edib. Reallaşdırılan tədbirlər çərçivəsində Culfa Rayon Rabitə Evi yenidən qurulub, mərkəzdəki Heydər Əliyev prospektində abadlıq, əsaslı təmir işləri aparılıb, yanacaqdoldurma məntəqəsi və maye qazdoldurma stansiyası tikilib, şəhərdaxili avtomobil yollarına asfalt-beton örtüyü salınıb.

Hazırda Darıdağ Arsenli Su Müalicəxanasının yenidən qurulması, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin Culfa şəhərindəki vaqon təmiri sexinin tikintisi və yardımçı binaların yenidən qurulması, idarəetmə mərkəzinin əsaslı təmiri, Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin inzibati binasının əsaslı şəkildə yenidən qurulması və yardımçı binaların tikintisi uğurla həyata keçirilir. Həmçinin Culfa şəhərinin Məmməd Əsgərov küçəsindəki 27, 42 nömrəli yaşayış binalarının əsaslı təmiri, Yaycı kəndində Mərasim evinin yenidən qurulması, Bənəniyar, Saltaq, Əlincə, Xoşkeşin kəndlərində mərasim evlərinin, Qazançı kəndində yeni məscidin tikintisi, Ləkətağ körpüsü tarix və mədəniyyət abidəsinin bərpası aparılır. Bundan başqa, rayon Təhsil Şöbəsi üçün inzibati, Culfa şəhərində 3 mərtəbəli yaşayış binaları, xidmət mərkəzi yenidən qurulur. Görülən tikinti-quruculuq tədbirləri çərçivəsində yol infrastrukturuna da xüsusi diqqət yetirilir, 49 kilometrlik Culfa-Ordubad magistral avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması, Darıdağ Arsenli Su Müalicəxanasına uzanan 4 kilometrlik yolun çəkilişi müvəffəqiyyətlə icra edilir.





Quruculuq işlərindən söz düşmüşkən onu da xüsusilə qeyd etmək yerinə düşər ki, artıq Camaldın kəndi də öz müasir görkəminə qovuşmaq ərəfəsindədir. Belə ki, kənddə 252 şagird yerlik məktəb binasının yenidən qurulması, yeni kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının tikintisi, 7,5 kilometrlik Ərəzin-Camaldın yolunun qurulması, 32 paqonometrlik Camaldın körpüsünün əsaslı təmiri yekunlaşmaq üzrədir. Deyirlər, bilikli olmaq azdır, gərək bu bilikdən istifadə etməyi də bacarasan. Təbii ki, qazandığın bilik və bacarıqları təcrübəyə çevirmək üçün lazımi şəraitin olması da mühüm amildir. Camaldın kəndinin məktəbliləri də dövlətimizin böyük qayğısı ilə lazımi tədris avadanlıqlarının quraşdırıldığı təhsil ocağının yeni binasında həm bilik öyrənəcək, həm də bu biliyi laboratoriyaların, müasir texnologiyaların köməkliyi ilə praktik surətdə tətbiq etmək imkanı qazanacaqlar. Bildiyimiz kimi, həyatda insan üçün ən önəmli olan cansağlığıdır. Məhz dövlətimiz də bu amili əsas götürərək bütün yaşayış məntəqələri kimi, Camaldında da yeni səhiyyə ocağı inşa etdirib. Kəndin yeni həkim ambulatoriyası sağlamlıq sarıdan yaranan problemlərin aradan qalxmasına, insanların keyfiyyətli səhiyyə xidmətindən istifadəsinə yol açacaq. Yolun abadlaşdırılması, yeni kənd və xidmət mərkəzlərinin, körpünün inşası, eləcə də bütün bunlarla paralel müasir kommunikasiya sistemləri ilə təminat sakinlərin rahatlığına, firavanlığına, müasir dövrün imkanlarından maksimum faydalanmalarına hesablanıb.

### *Aqrar sahənin inkişafı prioritet məsələ kimi gündəmdədir*

Culfada kənd təsərrüfatı sahələrinin inkişafı prioritet istiqamət kimi hər il diqqət mərkəzində saxlanılır, torpaqların münbitliyinin artırılması üçün görülən aqrotexniki tədbirlər əkilən ərazilərin miqyasının ilbəil daha da genişlənməsi ilə nəticələnir. Fermerlərə subsidiya və gübrələrin verilməsi, texnikalarla təminat, o cümlədən keyfiyyətli yerli toxum sortlarından istifadə əkinçilikdə məhsuldarlığın da səviyyəsini artırır. Naxçıvan şəhərində ötən illər ərzində keçirilən ənənəvi festivallarda bu bölgənin torpaq adamlarının fəallığı, çıxarılan məhsul çeşidlərinin alıcılar tərəfindən maraqla qarşılanması da Culfada aqrar sahənin inkişafının, sakinlərin torpağa bağlılıq hisslərinin güclü olmasının ifadəsidir. Cari ilin ilk 7 ayının göstəriciləri belə deməyə əsas verir ki, culfalılar əkin-biçin işlərinə xüsusi önəm yetirir və əkinlərin vaxtlı-vaxtında suvarılması, düzgün aqrotexniki qulluğun göstərilməsi son nəticədə bol məhsul tədarükünə yol açıb. Belə ki, rayonda 1 avqust 2020-ci il tarixə 7604 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 20 min 36, 6216 hektar buğda əkini sahəsindən 16 min 472, 1373 hektar arpa əkini sahəsindən 3529 ton məhsul yığılıb. Son illər Culfada sağlam qida rasionunun əsasını təşkil edən kartofçuluğun, meyvə və tərəvəzçiliyin inkişafına, bostan bitkilərinin yetişdirilməsinə xüsusi önəm verilir və bəhs olunan dövrdə də bu hal özünü müsbət mənada göstərib. Belə ki, 16 hektarlıq kartof sahəsinin 50 faizindən 92, 50 hektar tərəvəz bitkiləri əkilmiş sahənin 60 faizindən 257, 121 hektarlıq bostan bitkiləri sahəsinin 84,3 faizindən 961, meyvə bağlarından 2876, üzüm bağlarından 11,5 ton məhsul toplanılıb.

Düzənlik və otlaq əraziləri ilə bol olan Culfada sakinlərin əsas məşğuliyyət növlərindən biri də maldarlıq və heyvandarlıqdır. Sahələrin vaxtlı-vaxtında suvarılması, qışa hazırlıq zamanı kifayət qədər yem tədarük edilməsi fermerlərin təsərrüfatlarını ilbəil daha da genişləndirmələrinə stimul verir. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayon təsərrüfatçılarının istehsal etdikləri ağartı məhsulları piştaxtaları bəzəyir. "Yaxşı qazanc olan yerdə işləməyə, zəhmət çəkməyə dəyər" prinsipi ilə çalışan torpaq adamları cari ildə də muxtar respublika iqtisadiyyatına töhfələr verməkdə davam edirlər. 2020-ci ilin ilk 7 ayının statistik göstəriciləri də zəhmətkeş insanların alın təri hesabına qazandıqları böyük nailiyyətlərin müjdəçisidir. Belə ki, bəhs olunan dövrdə rayonda diri çəkidə 2189 ton ət, 7174 ton süd, 4 milyon 647 min ədəd yumurta, 128,9 ton yun istehsal edilib, ət istehsalı 1,6, süd istehsalı 1,5, yumurta istehsalı 1,1, yun istehsalı 1,2 faiz artıb. Ümumilikdə, hesabat dövründə rayonun kənd təsərrüfatı sektorunda 35 milyon 334,6 min manatlıq məhsul istehsal edilib ki, bu da 2019-cu ilin yanvar-iyul ayları ilə müqayisədə 2,2 faiz çoxdur.

### *Culfalılar görülən işlərdən razılıq edirlər*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası Culfa rayonunda da artıq öz bəhrələrini verir. İnfrastrukturun ən müasir tələblər səviyyəsində qurulması, yeni obyektlərin istifadəyə verilməsi sakinlərin rahatlığına xidmət etməklə yanaşı, həm də insanların müvafiq işlərlə təmin olunmasına yol açıb. Mütəmadi olaraq keçirilən əmək yarmarkalarına culfalıların maraq göstərməsi, bu tədbirlərdə ixtisaslarına uyğun iş tapmaları böyük sosial irəliləyişdən xəbər verir. Sakinlərin məşğulluğunun təmini istiqamətində atılan addımlar cari ilin yanvar-iyun aylarında bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqının məbləğinin 358 manat olması ilə nəticələnib ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 20,9 faiz çox deməkdir.

Həyata keçirilən sosialyönümlü siyasət, aparılan genişmiqyaslı quruculuq tədbirləri sakinlər tərəfindən böyük razılıqla qarşılanır. Culfa şəhərində yaşayan Qönçə İsmayılova deyir ki, müstəqilliyimizi qazandıqdan sonra hər bir culfalının ürəyində ümid çırağı şöləlіndi. Torpaqlar özümüzə qaytarıldı, əkib-becərdik, gün-güzəran qurduq, işsizlik ucbatından yurd-yuvalarından didərgin düşən qohum-əqrəbamız öz doğma el-obalarına qayıdıb iş-güc sahibi oldu. İllər ötdükcə quruculuq tədbirləri daha böyük vüsət aldı, Vətən, torpaq təəssübkeşlərinin yorulmaz əməyi sayəsində yurdumuz gülüstana çevrildi. 2017-ci ilin yanvar ayında isə zəhmətkeş culfalıların illərdən bəri intizarında olduqları, həsrətlə gözlənilən su problemi həll edildi, qəlblərə məlhəm, torpaqlara bərəkət gəldi, həyət-bacamız gül-çiçək ətrinə büründü. Cari ildə aparılan quruculuq işləri isə günü-gündən gözəlləşən Culfa şəhərini daha da yaraşıqlı, gözoxşayan hala gətirib. Yaşadığım Heydər Əliyev prospekti də zəhmətkeş əllərin nəvazişi sayəsində başdan-başa abadlaşdırılaraq gözəl, baxımlı simasına qovuşub. Əvvəllər yol sarıdan çətinliklərimiz var idi, ancaq, şükürlər olsun ki, artıq bu problemimiz də aradan qalxıb. İndi yolumuz rəvan, güzəranımız könülaçandır. Yaradılan belə gözəl şəraitə görə prospekt sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

Digər bir həmsöhbətim rayonun Camaldın kənd sakini Qeybulla Kərimovdur. O da öz ürək sözlərini dilə gətirərək deyir ki, rayonumuzun bugünkü büsatını, gənclərə yaradılan gözəl şəraiti görəndə xəyalım qeyri-iradi məni keçmişə aparır. Müəllim kimi yenicə fəaliyyətə başladığım vaxtlarda qarşılaşdığım çətinliklər, o dövrün məktəblərində hökm sürən acınacaqlı vəziyyət kinolent kimi gözlərim önündən gəlib keçir. Yaxşı yadımdadır, o illərdə yarıtmaz sosial, məişət, infrastruktur şəraiti gəncləri müəllim peşəsindən uzaq salır, işsizlik üzündən insanlar qonşu ölkələrə üz tuturdular. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra qarşımızda əsl nicat yolu açıldı, qısa zaman çərçivəsində rayonda bütün sahələrin dirçəlişinə nail olundu, ruzi-bərəkətlə dolu dövrə qədəm qoyduq. Sevindirici haldır ki, 2020-ci ildə aparılan genişmiqyaslı inşaat işlərindən bizim kəndə də böyük pay düşüb, Camaldında yeni sosial obyektlərin tikilməsi sakinlərin hədsiz sevincinə səbəb olub. Tezliklə biz də qayğımızı qarşılayacaq geniş kənd və xidmət mərkəzlərinə üz tuta biləcək, hər cür avadanlıqla təmin olunacaq siniflərdə dərs keçmək imkanı əldə edəcəyik. Yolumuzun əsaslı şəkildə yenidən qurulması, eləcə də həkim ambulatoriyasının, körpünün inşası da insanların firavanlığına xidmət edən çox təqdirəlayiq haldır. Bütün camaldınlılar adından dövlətimizə minnətdaram.

*...Statistik nəticələrdən, eləcə də rayon sakinləri ilə söhbətimdən belə qənaətə gəlirəm ki, dünyanın yoxsulluq, iqtisadi böhran və xəstəliklərlə mübarizə apardığı 2020-ci il də muxtar respublika sakinlərinin, o cümlədən culfalıların həyatına qızıl hərflərlə yazılır, inkişaf, tərəqqi rayonun hər qarışında hiss edilir. Əminliklə demək olar ki, cari ilin qarşıdakı dövründə də bu bölgəmiz muxtar respublikanın sosial-iqtisadi inkişafına öz əvəzsiz töhfələrini verəcək.*

**Nail ƏSGƏROV**

*Gəncliyimiz, gələcəyimiz*

# Hər bir dövlətin gələcəyi onun təhsilli, savadlı övladları ilə bağlıdır

***Bu gün bölgələrimizə yolumuz düşəndə ilk diqqəti çəkən görünüşü ali təhsil ocaqlarının binalarından heç də seçilməyən məktəblər olur. Bu təhsil ocaqları geniş sinif otaqları, laboratoriyaları, fənn kabinələri, elektron lövhəli otaqları, kompüter sinifləri, müasir idman zalları ilə şagirdlərin və pedaqoji kollektivin ixtiyarına verilib. Muxtar respublikanın ən ucqar sərhəd yaşayış məntəqələrində, ən kiçik kəndlərdə tikilən müasirtipli məktəb binaları təhsilin inkişafına göstərilən böyük qayğı olmaqla şagirdlərin elm, bilik dünyasına aparan yollarını aydınladır, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün stimul yaradır, öz intellekti ilə xalqına, cəmiyyətinə daha çox fayda vermək istəyənlərin sayı ilbəil artır. Nəticədə, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarındakı göstəricilər ildən-ilə yüksəlir. Tələbə adını qazananların səsi ölkəmizlə yanaşı, dünyanın bir çox ali təhsil ocaqlarından, elmi-tədqiqat institutlarından gəlir.***

***Qədim mədəniyyəti, tarixi ilə tanınan Şərur rayonu da Azərbaycan xalqına bir çox alim, yazıçı, dövlət xadimi bəxş edib. Bu gün də bu ənənə davam etdirilir, gənc nəsil nurlu sabahımıza doğru inamla irəliləyir. Hər il olduğu kimi, bu il də tələbə adının sevincini yaşayan gənclərimiz öz seçdikləri ixtisas üzrə təhsil almağa, qədim diyarımızın inkişafına töhfələr verməyə tələsirlər. Şərur rayonunda ötən illərdə olduğu kimi, 2019-2020-ci tədris ilində də yüksək nəticələr əldə edilib. Rayonun tam orta məktəblərini bitirən 524 məzundan 471-i ali məktəblərə qəbul imtahanlarında iştirak edib, 45 nəfər 500-700 arası bal toplayıb ki, onlardan da ikisi ötən ilin məzunudur.***

*Qəbul imtahanlarında yüksək bal toplayan məzunlardan bir neçəsi ilə həmsöhbət olduq.*

***Günəş Babayeva*** Şərur rayon Tənənəm kənd tam orta məktəbini müvəffəqiyyətlə bitirərək ali məktəblərə qəbul imtahanlarında iştirak edib. O, III ixtisas qrupu üzrə 621 bal toplayaraq rayon üzrə ən yüksək nəticəni qazanıb. Günəşin dedikləri:



– Kəndimizin məktəbində bizim yaxşı təhsil almağımız üçün hər cür şərait var. Mənim isə ən böyük arzum savadlı hüquqşünas olmaq idi. Çünki bu sahəni seçənlər həyatlarını insanların hüquqlarının müdafiəsi kimi müqəddəs bir mərama həsr edirlər. Bundan yaxşı, bundan nəcib nə iş ola bilər? Sevinirəm ki, qəlbimdəki istəyimə qovuşacağam. Hər il Ali Məclis Sədrinin yüksək bal toplayan abituriyentlərlə görüşü olur. Səbirsizliklə bu görüşü gözləyirəm. Mənim kimi ali məktəb tələbəsi adını qazanan bütün məzunlar adından bu uğurları əldə etdiyimiz üçün bizə daim qayğı göstərən dövlətimizə minnətdaram. Çalışacağam ki, bu qayğıya cavab olaraq universitetdə də nümunəvi tələbələrdən olum. Ali təhsilimi müvəffəqiyyətlə başa vurandan sonra müstəqil Azərbaycanın gənc hüquqşünası kimi qanunun aliliyini qoruyacağam.

***Nərmin Rzayeva:*** – Şərur şəhər 2 nömrəli tam orta məktəbi bitirmişəm. IV ixtisas qrupu üzrə 620 bal toplamışam. Məzunu olduğum tam orta məktəb müasir təhsil ocaqlarından biridir. Mən də uğur qazanan hər bir şagird kimi bu qayğılardan, yaradılan şəraitdən bəhrələnmişəm. Bu ilin mart ayından pandemiya ilə əlaqədar, bütün dünyada olduğu kimi, ölkəmizdə də təhsildə müəyyən fasilə yaransa da, dərslərimizin onlayn şəkildə tədrisi uğurla davam etdirilirdi, müəllimlərimiz suallarımızı virtual şəkildə cavablandırır, yeni mövzuları onlayn şəkildə əhatəli izah edirdilər. Bütün bunların sayəsində təhsildən geri qalmadıq. Dərslərimizi vaxtlıvaxtında tədris edən müəllimlərimizin sayəsində imtahanda yüksək nəticə qazandıq. Onu da deyim ki, orta məktəb illərindən bilik yarışlarında, fənn olimpiadalarında fəal iştirak etmişəm, yüksək nəticələr göstərmişəm. Qazandığım biliklər ali məktəblərə keçirilən qəbul imtahanında yaxşı nəticə əldə etməyimə səbəb olub. Seçəcəyim ixtisasa gəldikdə isə ən böyük arzum həkim olmaqdır. Həkimlik qədim və müqəddəs peşədir. Mən də insanların ayrılmaz dostu olan bu peşə sahibləri kimi, daim onların sağlamlıqları keşiyində dayanmaq istəyirəm. Bu arzumun reallaşacağına inamım böyükdür.



***Jalə Məmmədova*** rayonun Qorçulu kənd tam orta məktəbinin məzunudur. O, IV ixtisas qrupu üzrə 615 bal toplayıb. Jalənin də ən böyük arzusu həkim olmaqdır. O deyir:



– Seçdiyim sahənin nə qədər məsuliyyətli olduğunu yaxşı dərk edirəm, bu yolda uğur qazanmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu yolu uğurla keçib biliyimlə, fəaliyyətimlə xalqımıza xeyir verəcəyim günlər isə ən xoşbəxt çağlarıma çevriləcək. Seçimim, əlbəttə ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi olacaq. Yurdumuzda yüksək səviyyədə təhsil üçün hərtərəfli şərait yaradılıb. İnanıram ki, ali təhsilimi burada uğurla başa vurub, səhiyyə ocaqlarımızda çalışan həkimlərimizlə çiyin-çiyinə işləyib, yurdumuzdakı təhsilin, səhiyyə xidmətinin necə yüksək səviyyədə olduğunu sübuta yetirəcəyəm.

* * *

*Muxtar respublikamızın sərhəd bölgəsi olan Sədərək rayonunda da təhsilə göstərilən dövlət qayğısı nəticəsində hər il ali təhsil müəssisələrinə qəbul olunanların sayı artır. Rayonda fəaliyyət göstərən tam orta məktəblərin məzunları ali məktəblərə builki qəbul imtahanında müvəffəqiyyətlə iştirak ediblər.*

Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Natiq Qasımov:*** – Cəbhə bölgəsində düşmənlə üz-üzə yaşayan, sinif otaqlarının pəncərələrindən düşmən postlarını görən, ordumuzun müdafiə qüdrəti, təhsilin inkişafı üçün yaradılan müasir şərait sayəsində sədərəkli məktəblilər yaxşı oxuyur və qəbul imtahanlarında yüksək nəticə göstərərək müəllim və valideynlərini sevindirirlər. Bu şəraitdən bəhrələnənlərdən biri olduğum üçün çox xoşbəxtəm. Müəllimlərimizin əməyinin nəticəsidir ki, mart ayından ənənəvi tədrisə müvəqqəti fasilə verilməsinə baxmayaraq, dərslər onlayn şəkildə davam etdirilib, təhsildən geri qalmamışıq. Qatıldığım intellektual yarışlarda, həmçinin fənn olimpiadalarında nailiyyətlər əldə etmişəm. 2017-2018-ci tədris ilində keçirilən muxtar respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə 1-ci yerə layiq görülmüşəm.



Sonrakı illərdə də uğurlarım az olmayıb. Buraxılış imtahanında 208,1, qəbul imtahanında 307,2, ümumilikdə, 515 bal toplayaraq yüksək nəticə göstərməyim hədsiz sevincimə səbəb oldu. Seçimim Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının İqtisadiyyat ixtisası olacaq.

Natiq onu da deyir ki, ölkəmizdə insan amilinə, təhsilə ciddi dəyər verilir. Uğurlarımızın təməlində, ilk növbədə, dövlət qayğısı dayanır. Məktəbimizdə şagirdlərin müasir informasiya texnologiyalarının sirlərinə mükəmməl yiyələnmələri üçün hər cür şərait vardır. Müasirtipli kompüterlər, elektron lövhəli sinif otaqları şagirdlərin ixtiyarına verilib ki, bu da təhsildə keyfiyyət dəyişikliklərinə zəmin yaradıb. Öhdəmizə düşən yaxşı təhsil alıb gələcəkdə çalışacağımız işdə dövlətimizə yararlı olmaqdır.

Sədərək kənd 2 nömrəli tam orta məktəbdən məzun olan ***Səkinə Əlirzayeva*** 512 bal toplayıb. O, Naxçıvan Dövlət Universitetinin Riyaziyyat müəllimliyi ixtisasını seçməyi qərarlaşdırıb. "Siz də gələcəkdə müəllim olacaqsınız. Yaxşı müəllimi necə təsəvvür edirsiniz?" – sualına cavabında Səkinə dedi ki, bunun üçün, ilk növbədə, vətənpərvər olmalısan. Vətənpərvərlik ən ali dəyərdir. Vətənə sevgi hər bir insana hələ orta məktəbdən aşılanır. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğının müqabilində yaxşı oxumalı, gələcəkdə xalqımız üçün yararlı kadr olmalı, daim çalışmalıyıq. Tələbə adını qazanmaqla iş bitmir. Qarşıda daha məsuliyyətli bir dövr vardır. Daha çox oxumaq, öz üzərində işləmək lazımdır. Bunun üçün biz gənclərə hər cür şərait yaradılıb. Ona görə də dövlətimizə minnətdaram. Çalışacağam ki, valideynlərimi, mənə dərs deyən müəllimləri bundan sonra da sevindirim.



Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Nurtən Dünyamalıyeva:***

– Hər birimiz fəxr edir, qürur hissi keçiririk ki, son illərdə muxtar respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da təhsil müəssisələri üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Təhsil aldığım məktəb də bunlardan biridir. Məktəbdə yeniyetmə və gənclərin hərtərəfli təhsil alması üçün hər cür şərait mövcuddur. Təbii ki, belə təhsil ocaqlarını bitirən məzunun ali məktəbə qəbul olması heç də çətin deyil. Mən də bu qayğılardan bəhrələnənlərdən biriyəm. Sınaq imtahanlarında, müxtəlif bilik yarışlarında bir sıra uğurlar qazanmışam. Bir çox şahmat müsabiqələrində və eləcə də rayon, məktəb tədbirlərində iştirak etmiş, müxtəlif diplom və fəxri fərmanlara layiq görülmüşəm. Buraxılış imtahanında 175,8 bal, qəbul imtahanında isə 313,4 bal, ümumilikdə, 489 bal toplamışam. Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasını seçərək müəllim olmaq arzusundayam.



***Sərcan Ağazadə*** Sədərək rayon Qaraağac kənd tam orta məktəbinin məzunudur. O deyir: – İbtidai sinifdə oxuduğum vaxtlardan dəqiq elmlərə böyük marağım olub. Bunun nəticəsidir ki, sınaq imtahanlarında bir çox uğurlar qazanmışam. Muxtar respublikamızda keçirilən bilik yarışlarında diplom və fəxri fərmanlarla təltif edilmişəm. Qəbul imtahanında isə 486 bal toplamağa nail olmuşam. İxtisas seçimi zamanı İnformasiya təhlükəsizliyi ixtisasını seçmək arzusundayam. Seçəcəyim ixtisas haqqında maraqlandım və öyrəndim ki, ölkəmizdə informasiya sistemlərinin güvənliyini, sistemə bağlı informasiya ehtiyatlarının qorunmasını həyata keçirə bilən və kibercinayətlərə qarşı mübarizə aparacaq ixtisaslı mütəxəssislərə böyük tələbat var. Mən də yaxşı təhsil alıb Vətənimizin inkişafına gələcəkdə öz töhfəmi verməyə çalışacağam.



*Ölkəmizdə ulu öndərin əsasını qoyduğu təhsil siyasəti bu gün muxtar respublikamızda da uğurla davam etdirilir, təhsil infrastrukturu yenilənir. Bütün bu işlər isə diyarımızın blokadada olduğu, dünyanı iqtisadi böhranın bürüdüyü bir dövrdə görülür. Bu isə sübut edir ki, dövlətimiz hər an xalqımızın işıqlı sabahı olacaq gələcək nəslin, onların yaxşı təhsil alması üçün gərgin əmək sərf edən təhsil işçilərinin yanındadır. Və bütün bunlar qəlbimizdə fərəh hissi doğurmaqla yanaşı, bizdə bu inamı daha da qüvvətləndirir: Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim torpağımız Naxçıvanın təhsil uğurları ildən-ilə artacaq, övladlarımızın sorağı respublikamızın, dünyanın sayılıb-seçilən ali məktəblərindən gələcək.*

✍ **Ramiyyə ƏKBƏROVA**

***AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Əlincəçay mahalının epiqrafik abidələri" adlı monoqrafiyasının təqdimatı keçirilib.***

# "Əlincəçay mahalının epiqrafik abidələri" monoqrafiyasının təqdimatı olub





Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq qədim tarixə malik olan və yerli əhali arasında Əlincəçay mahalı kimi tanınan Culfa rayonu ərazisində bir sıra yaşayış məskənlərindən günümüzədək gəlib çatan epiqrafik abidələrə həsr olunan əsərin müasir dövr üçün aktuallığından danışıb. Bildirib ki, Culfanın ərazisi orta əsrlərin müxtəlif dövrlərində həkk olunmuş epiqrafik abidələrlə çox zəngindir. Rayon ərazisi indiyədək arxeoloji cəhətdən müəyyən qədər öyrənilsə də, Əlincəçay mahalı ərazisində bu günə qədər gəlib çatmış kitabələr tam və sistemli şəkildə toplanıb tədqiq edilməyib, onlara xüsusi tədqiqat işi həsr olunmayıb. Abidələrin əksəriyyətinin açıq havada olması, təbii qüvvələrin təsirinə daha çox məruz qalması səbəbindən həmin kitabələrin bir hissəsi zaman keçdikcə sıradan çıxıb, özlərində əks etdirdikləri dəyərli tarixi faktlarla birlikdə məhv olublar.

Diqqətə çatdırılıb ki, yeni tədqiqat əsərində Azərbaycanın orta əsrlər dövrü siyasi-iqtisadi və mədəniyyət tarixinin bir sıra məsələlərinin aydınlaşdırılması üçün zəngin faktlar təqdim edən abidələr əsasında bəzi yaşayış məskənlərinin, memarlıq abidələrinin, qəbiristanlıqların tarixi müəyyənləşdirilib. Kitabələrin köməyi ilə çoxlu görkəmli şəxsiyyətin, o cümlədən Azərbaycan hökmdarlarının, orta əsrlər zamanı Əlincəçay mahalından çıxmış və ya orada yaşamış dövlət xadimlərinin, hərbçi-sərkərdələrin, sufi təriqətləri rəhbərlərinin, kübar ailələrə məxsus bir sıra qadınların və başqa insanların adları, daşıdığı titullar, vəfat tarixləri, qəbirlərinin yeri və sair aşkar edilərək elmi dövriyyəyə daxil edilib.

Nəşrin Naxçıvanın orta və son orta əsrlər dövrü tarix və mədəniyyətinin müxtəlif problemlərini aydınlaşdırmaq üçün zəngin material olduğunu deyən bölmə sədri müəllifə bundan sonrakı elmi fəaliyyətində uğurlar arzulayıb.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və orta əsrlər tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevin "Əlincəçay mahalının epiqrafik abidələri" monoqrafiyası haqqında bir neçə söz" mövzusunda məruzəsi dinlənilib.

Tədbirdə, həmçinin institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent Yaşar Rəhimov və Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov çıxış edərək ictimaiyyətə təqdim olunan monoqrafiyanın elmi dəyərindən danışıblar. Qeyd olunub ki, monoqrafiya Əlincəçay mahalına məxsus epiqrafik abidələri özündə əks etdirən ilk sanballı tədqiqat əsəri, diyarımızın tarixinin tədqiqatçıları üçün zəruri vəsait olmaqla, Naxçıvanşünaslığa qiymətli töhfədir. Bildirilib ki, mahala daxil olan yaşayış məskənlərindən günümüzədək gəlib çatan, yerli sənətkarlar tərəfindən hazırlanan sənduqə və qoç heykəltipli qəbirüstü xatirə abidələri orta əsrlər zamanı bu ərazidə daş üzərində işləmə – bədii daşyonma və xəttatlıq sənətinin inkişaf mərhələlərini izləməyə imkan verməklə bərabər, bu sənətlərin yüksək dərəcədə inkişaf etdiyini təsdiq edən sanballı qaynaqlardır ki, həmin məlumatlar da yeni nəşrdə öz əksini tapıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası ərazisində epiqrafik abidələrin yayılması xəritəsi, o cümlədən kitabələrin fotosu və qrafik təsvirlərin də əlavə edildiyi monoqrafiyadan tarixçilər, doktorantlar, magistrlər, tələbələr, ümumilikdə, Azərbaycan tarixi ilə maraqlananlar faydalana bilərlər.

Sonda müəllif, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli çıxış edərək 1995-2019-cu illərdə çap olunan elmi əsərlərin statistikasına nəzər salıb. Alim muxtar respublikada elm adamları, tədqiqatçılar üçün yaradılan hərtərəfli şəraitə, diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Sağlam cəmiyyət və sağlam gələcək naminə

***İctimai-siyasi, iqtisadi, sosial tədbirlərin reallaşmasında həyatın bütün sferalarında uğurlu fəaliyyəti ilə seçilən gənclərin rolu böyükdür. Hazırda dövlət tərəfindən yaranan imkanlar bu aparıcı təbəqəni cəmiyyətin vacib qüvvəsinə çevirib. Təbii ki, burada əsas məqsəd intellektual, fiziki cəhətdən sağlam və vətənpərvər gənclər yetişdirməkdir. Qürur duyuruq ki, ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, cəmiyyətdə vətənpərvər vətəndaş kimi formalaşması siyasəti muxtar respublikamızda məqsədyönlü şəkildə davam etdirilir. Gənclər və idman siyasəti Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib.***



### *Geniş spektri əhatə edən proqram*

Günü-gündən müasirləşən qədim diyarımızda həyata keçirilən gənclər və idman siyasəti uşaq, yeniyetmə və gənclərin hərtərəfli inkişafını, onların cəmiyyət həyatında fəal iştirakını təmin edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın da məqsədi əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, eyni zamanda idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılmasıdır. Təbii ki, adıçəkilən mühüm dövlət sənədinin icrası zəngin idman ənənələrinə məxsus diyarımızda bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasına, xüsusilə də beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsinə səbəb olacaqdır. Proqramda diqqətçəkən digər məqam çox geniş bir spektri – gənclərin təhsili, tərbiyəsi, Azərbaycançılıq ideologiyasını, milli-mənəvi dəyərləri mənimsəmələri, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın səmərəli təşkili, cəmiyyətin bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə etməsidir.

### *Gənclər işıqlı sabahımızdır*

Muxtar diyarımızda uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır ki, bu tərəqqinin geniş vüsət almasında gənclərin rolu böyükdür. Ümumiyyətlə, Naxçıvanda gənclər siyasəti məhz ulu öndərin böyük ideyaları üzərində qurulub: milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi, onların elmi və intellektual potensialının inkişafı üçün ciddi təhsil və sosial islahatların həyata keçirilməsi, dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması. Təbii ki, bu da gənclərimizin qürur mənbəyinə çevrildiyi kimi həm də onların üzərinə mühüm vəzifələr qoyur. Qloballaşma dövründə milli maraqlara və dəyərlərə əsaslanan bu siyasət gəncləri gücdən prosesIərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edir. Nəticəsi isə ötən dövr ərzində gənclərimizin qazandıqları nailiyyətlərdir.

Gənclər siyasətinin uğurlarından danışarkən qeyd etmək yerinə düşər ki, pandemiya dövrü olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən 70-i gənclərlə olmaqla, 181 tədbir keçirilib. Yeniyetmə və gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi, tariximizin gələcək nəsillərə çatdırılması, gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsi, yaradıcı düşünən, sağlam gənclərin yetişdirilməsi məqsədilə bir sıra tədbirlər keçirilib, onların muzeylərə ekskursiyaları təşkil olunub, film və tamaşa nümayiş etdirilib. Gənclərin intellektual səviyyəsini, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunun artırılması daim diqqətdə saxlanılıb, ölkədaxili bilik yarışlarında iştirakları təmin edilib. Həmçinin muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunub, asudə vaxtın səmərəli təşkili məqsədilə yeni startap layihələrinə start verilib.

Göründüyü kimi, gənclər siyasətinin cəmiyyətin demokratik inkişaf tələblərinə uyğun həyata keçirilməsinə, gənclərin qüvvə və bacarıqlarının, onların yaradıcılıq imkanlarının milli dövlət quruculuğu məsələlərinin icrasına səfərbər olunmasına çalışılır. Ölkədə həyata keçirilən islahatlar proqramlarının reallaşdırılması, ümumbəşəri və milli dəyərlərin təbliğinin təmin edilməsinə ciddi önəm verilir. Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, öz dövlətinin müstəqilliyinin müdafiəsinə hazırlıq ruhunda tərbiyə edilməsi, ən əsası isə gənclər arasında işsizliyin aradan qaldırılması üçün başqa dövlət orqanları ilə birgə fəaliyyət göstərilməsi daim diqqət mərkəzində saxlanılır.







### *İdman sahəsində görülən işlər gələcəyə hesablanmış mühüm addımlardır*

Sağlam cəmiyyət hər bir dövlətin strateji məqsədidir və dövlətlər vətəndaşların idmanla məşğul olmaları üçün müəyyən edilmiş bir siyasət həyata keçirirlər. İdmanın kütləviliyinin təmin edilməsi, eyni zamanda cəmiyyətdə sağlam nəslin formalaşmasına səbəb olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov idmanın cəmiyyət həyatındakı müstəsna roluna belə siyasi qiymət vermişdir: ***“Bədən tərbiyəsi və idmanla məşğul olmaq təkcə yarışlarda iştirak etmək və yüksək nailiyyət əldə etmək məqsədi daşımır, eyni zamanda zərərli vərdişlərin qarşısının alınmasında, əhali sağlamlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu xüsusatı əsas götürərək ona nail olmalıyıq ki, muxtar respublikada bədən tərbiyəsi və idman sahəsində yaradılanlardan bütün vətəndaşlar, o cümlədən gənclər səmərəli istifadə edə bilsinlər”.***

Bu gün qürur duyuruq ki, muxtar diyarımızda idman hərəkatının idarə olunması prosesi günün tələbləri səviyyəsində inkişaf etdirilir. Müasirləşən idman qurumlarının sayı artırılır, yeni-yeni idman obyektləri tikilir, onların fəaliyyətinə hərtərəfli şərait yaradılır. Bu prosesin daha da genişmiqyaslı olması üçün müəyyən addımlar atılır və bu, özünün inkişafında yeni mərhələyə qədəm qoyur. İdman üçün görülən işlər isə öz bəhrəsini verməkdədir. Belə ki, cari ilin ilk yarısında zərərli vərdişlərdən imtina və sağlam həyat tərzinin təbliği məqsədilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında və əlamətdar günlərin qeyd edilməsi məqsədilə yeniyetmə və gənclər arasında birinciliklər, hakimlər və məşqçilər üçün toplanış və seminarlar keçirilib, muxtar respublikanın rayonlarında sadətipli idman qurğularının yerləşdirilməsi üçün istirahət parklarında yerlər ayrılıb, tennis kortu, çimərlik futbolu meydançası və velosiped zolağı istifadəyə verilib.

Konseptual şəkildə ardıcıl işlərin görüldüyünü, idmançılara diqqət və qayğının göstərildiyini, onların dövlət tərəfindən mükafatlandırıldığını nəzərə alsaq, Naxçıvanda hərtərəfli inkişaf üçün idman potensialının gücləndirilməsi çox böyük əhəmiyyət daşıyır. Belə ki, diyarımızda bədən tərbiyəsi və idman geniş vüsət alıb, bu sahədə sistemli şəkildə böyük işlər görülüb, idmanla məşğul olmaq üçün lazımi şərait yaradılıb, uşaq, yeniyetmə və gənclərin yarışlarda iştirakı təmin edilib. Uşaq və yeniyetmələrin fiziki tərbiyəsi ilə bağlı iş müntəzəm və məqsədyönlü aparılıb, onların valideynləri ilə maarifləndirici söhbətlər edilib. Muxtar respublikada həyata keçirilən idman siyasəti uşaq, yeniyetmə və gənclərin idmana olan marağını artırıb, şəhər və rayonlarda, həmçinin kəndlərdə istifadəyə verilən idman obyektləri, zalları onların sevimli məkanlarına çevrilib. Məlum olduğu kimi, idman hər yaşda insanların sağlamlığı ilə bərabər, onların harmonik inkişafına da şərait yaradır, ali və orta təhsil müəssisələrinin tələbələrinə Vətənin şərəfini müdafiə etmək kimi müsbət keyfiyyətləri aşılayır. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***“İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər, dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir”.*** Naxçıvanda idman təkcə uşaq, yeniyetmə və gənclər arasında deyil, həm də yaşlılar, sağlamlıq imkanları məhdud insanlar səviyyəsində inkişaf etdirilir.

İdman sahəsində səmərəliliyə nail olmaq üçün güclü hüquqi bazanın yaradılması vacibdir. Muxtar respublikamızın mühüm idman və mədəniyyət platformasına çevrilməsi həm də strateji əhəmiyyətli inkişaf konsepsiyası baxımından önəmlidir. Belə ki, mötəbər beynəlxalq tədbirlərin diyarımızda keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını nümayiş etdirməklə yanaşı, həm də mədəni humanitar sahədə güclü, cəlbedici mərkəz olduğunu bütün dünyaya göstərmiş olur. İdman tərəqqisi, idman mədəniyyəti muxtar respublikanın beynəlxalq aləmdə nüfuzuna müsbət təsir göstərməklə yanaşı, həm də iqtisadi potensialını nümayiş etdirir. Belə mötəbər tədbirlər, sadəcə, idman yarışlarını deyil, həm də dostluğu möhkəmləndirən, idmançılar arasında münasibətləri gücləndirən önəmli bir amildir.

### *Nəticə...*

İnsan potensialı zəngin, infrastrukturu güclü, maddi-texniki bazası beynəlxalq standartlara cavab verən bir diyarda idmanın inkişafı da güclü olmalıdır. Muxtar respublika iqtisadiyyatının daha da güclənməsi, möhkəm dayaqlara əsaslanması idmanın da inkişafında həlledici rol oynayır. Həmçinin idmançılarımızın qazandıqları qələbələr gənc nəslə müsbət təsir göstərir, onları daha böyük uğurlar qazanmağa səsləyir, vətənpərvərlik ruhu aşılayır. Odur ki, Naxçıvanda idmanın inkişaf etdirilməsi, sağlam nəslin yetişdirilməsi işi prioritet sahə kimi diqqətdə saxlanılır.

✍ **Ceyhun MƏMMƏDOV**

---

# Kəskin koronar sindromlu xəstənin həyatı xilas olundu

Bir neçə gün əvvəl Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə iş vaxtından sonra – saat $18^{30}$-da ağır vəziyyətdə olan bir xəstə gətirilmişdi. Kəskin miokard infarktı keçirdiyindən xəstənin ürəyində sağ koronar arteriya tamamilə tutulmuş, ürəyin dayanması müşahidə olunmuşdu. Konsultativ müayinə zamanı xəstəyə kəskin koronar sindrom diaqnozu qoyulmuşdu. Onun həyatı üçün ciddi təhlükə yarandığından bir saat ərzində cərrahi müdaxilə zərurətə çevrilmişdi. Vaxt yox idi. Gecikmək xəstənin həyatı bahasına başa gələ bilərdi, odur ki, dərhal Kardiocərrahiyə şöbəsinə yerləşdirilmiş və iş vaxtından sonra dərhal bir araya gəlmiş kardioəməliyyat heyəti komanda şəklində vaxt itirmədən əməliyyatın icrasına başlamışdı. Kardiocərrah Firdovsi Hüseynov, kardio-anestezioloq-reanimatoloq Elçin Abdullayev və assistentlərin iştirakı ilə xəstədə 3-lü koronar damar şuntlama əməliyyatı icra olunub. Aşağı ətraflardan alınan venoz damar tıxanmış ürək damarlarına calaq edilərək ürəyin yenidən qidalanması bərpa edilib. Ürək yenidən oksigenlə təmin olunub və baş verə biləcək miokard infarktının qarşısı alınmaqla xəstənin səhhətindəki problem tamamilə aradan qaldırılıb.



Naxçıvan şəhər sakini 49 yaşlı Məmməd Rzayev onu həyata qaytaran həkimlərə bu fədakar əməyə görə minnətdarlığını bildirir, muxtar respublika səhiyyəsində görülən işləri, bütövlükdə, dövlətimizin öz əhalisinin sağlamlığına göstərdiyi qayğının parlaq ifadəsi kimi dəyərləndirir.

Bu gün doğma diyarımızın səhiyyə müəssisələrində aparılan genişmiqyaslı quruculuq işləri daha geniş vüsət almaqdadır. Yeni xəstəxana binalarının tikilməsi, mövcud binaların yenidən qurulması, onların ən müasir avadanlıqlarla təchiz edilməsi ixtisaslı gənc kadrların yetişməsinə stimul olmuşdur. Səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkilinə ciddi önəm verilir.

Nəticədə, yerli həkimlər tərəfindən mürəkkəb cərrahi, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatlarının təşkili, heç şübhəsiz, onlara həm maddi, həm də mənəvi dəstəkdir. Bütün bunlar əhalinin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısının parlaq təzahürü, Naxçıvan səhiyyəsinin uğurlarıdır.

**Hüseyn ƏSGƏROV**

### *İtmişdir*

Şahbuz rayonu, Kolanı kəndində yaşayan Qələndərov Əbülfəz Talıb oğlunun adına verilmiş JN-136[A], JN-136[B] və JN-136[C] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər Ə.Naxçıvani məhəlləsi, döngə 7, ev 10[A]-da yaşayan İsgəndərov Habil Haşım oğlununun adına olan evin 16432 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 684